# QENDER ŞÜURU VƏ ÖZÜNÜDƏRKİ

Bu bölmə 2 hissədən ibarətdir:

A) qender şüurunun formalaşması;
B) qadınların və kişilərin özünüdərki.

Bu bölmədə şüuru artıran və dərinləşdirən, həm də müxtəlif qruplarda tətbiq edilə bilən bir neçə məşğələ təklif olunur. Onlardan təlim keçirdiyiniz qrupun növünə və qender şüuru səviyyəsinə daha çox uyğun gələnləri tətbiq etmək lazımdır. Bununla belə, vacib məqam kimi qeyd olunmalıdır ki, istənilən qender təlimi kursunun tərkibinə bu bölmədə göstərilən qender şüuru məşğələlərindən heç olmazsa biri daxil edilir ki, bununla qrupda qender təhlilinə keçməzdən qabaq qender haqqında ümumi təsəvvür yaradılsın.

## *1. Qender şüurunun formalaşması*

Məşğələnin birinci hissəsində qender konsepsiyası müzakirəyə çıxarılır, iştirakçıların qender münasibətlərinə olan emosiya və ideyaları öyrənilir, sonra qender və inkişaf problemlərinin baxılmasına keçilir. Mövzuların bəziləri olduqca ümumi xarakter daşıyır və qender təhlili ilə yenicə tanış olmağa başlayanlar, ya onu heç keçməyənlər, yaxud da qenderlə ilkin tanışlıq təlimini keçənlər (məsələn, qender oyunları üçün nəzərdə tutulur. Digər mövzular qender konsepsiyası ilə (məsələn, Qender nədir?) kifayət qədər tanış olan qruplar üçündür. Başqa mövzularsa mübahisəli olduğundan yalnız ilk ümumi məşğələlərdən sonra ya da ki, qender baza konstruksiyası ilə yaxşı tanış olan qruplarla keçirilməlidir. Bir çox mövzular onlarla ilk dəfə tanış olan adamlarda güclü emosiyalar oyadır, odur ki, təlimatçı buna hazır olmalıdır.
Əgər sizin qender təlimi üzrə təcrübəniz azdırsa, yaxud onu çoxdan keçirməyibsinizsə, onda məşğələnin bu bölməsinə keçməzdən qabaq, yaxşı olardı ki, yaddaşınızda «Əsas Konsepsiyalar» bölməsini təzələyəsiniz. Bölmə qarışıq qruplara (qadınlar və kişilər birlikdə) uyğun gəlitr.

<u>Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar:</u>

1. Uşağınızın cinsinin seçilməsi – 30-40 dəq.
2. «Mənim kişi/qadın təşkilatım» - 40 dəq.
3. Qender oyunu – 30 dəq.
4. Qender nədir? – 30-90 dəq.
5. Uşağın doğulması – 50 dəq.
6. Qender dairələri – 30 dəq.
7. Öz yerinizi seçin – 1-1,5 saat.
8. İki səbət – 50 dəq.

## 2. *Kişilərin və qadınların özünüdərki*

Bu bölmənin ikinci hissəsinin məşğələləri potensial olaraq olduqca emosionaldırlar. Məsələn, «Qadınlara qarşı zorakılıq» mövzusu bəzi qadınlara dərindən təsir göstərə bilər. Siz yəqin etməlisiniz ki, qrupda qadınların öz hisslərini sərbəst və qorxmadan bildirməsi üçün ümumi atmosfer kifayət qədər məqbuldur. Bu məşğələ yalnız qadınlar üçündür, ya da yalnız kişilər üçün. Bununla belə əgər siz ondan qarışıq qrupda istifadə etmək istəyirsinizsə, bu çox güclü və vacib tədris təcrübəsi olar. Yaxşı olardı ki, məşğələ əvvəlcə ya qadın qrupunda, ya kişi qrupunda keçirilsin, sonra isə ümumi müzakirələr üçün qruplar birləşdirilsin.

Baxılmaq və müzakirə üçün təklif olunan suallar

1. Çevrilmiş dünya – 1 saat
2. Kişilərin və qadınların stereotipləri necədir? – 1-1,5 saat
3. Stereotiplər: özünüifşa – 45 dəq. – 1 saat
4. Həlqənin qırılması – 30 dəq.
5. Kişi kişiyə – 1 saat
6. Feminist pokeri – 50-90 dəq.
7. Kişinin təşəkkülü – 30-40 dəq.
8. Qadına qarşı zorakılıq – 50-90 dəq.

## QENDER ROLLARI VƏ TƏLƏBATLARI

Bu bölmədəki məşğələlərlə təlim proqramı qender təhlili mərhələsinə keçir. İlk bir neçə məşğələ zamanı qadınlara və kişilərə münasibətdə qender rolları və stereotipləri öyrənilir. Bu bölmədən sonra iştirakçıları bəzi qender təhlili metodları ilə tanış edən və ilk olaraq Karolin Mozer tərəfindən analitik əsas kimi işlənib qender ekspertizasına və planlaşdırılmasına yönələn digər mövzular gəlir. Burada təqdim edilən bir neçə əsas konsepsiya, məsələn, əməyin qender bölgüsü, qadının üçlü rolu, strateci və praktiki qender tələbatları və s. əvvəlki fəsillərdə qısaca verilmişdir.

Hazırki vəsaitdə «strateci» və «praktiki» qender tələbatları terminləri Mozer qender planlaşdırması metodu əsasında istifadə olunur. Məhz o, Maksin Mulinenin 1985-ci ildə çap etdirdiyi işində təqdim etdiyi qadınların maraqları, strateci qender maraqları və praktiki qender maraqları arasındakı fərqlər üzərində özünün strateci və praktiki qender tələbatları anlayışının əsasını qoymuşdur. Mozer maraqları və ya «prioritet maraqların» tələbatları yaxud qender planlaşdırmasında vacib alət olan «maraqları təmin edən vasitələrə» transformasiyasını göstərir. Məsələn, strateci qender marağı daha çox cəmiyyətdə bərabərliyə nail olmağa yönəlirsə, strateci qender tələbatı və ya bu marağı təmin edən vasitə əməyin qender bölünməsinin ləğvinə istiqamətlənə bilər.

«Tələbatlar» və ya «maraqlar» terminlərindən hansına üstünlük verilməsindən asılı olmayaraq çox vacibdir ki, iştirakçılara praktiki və strateci tələbatlar (maraqlar) arasındakı fərq çox aydın izah olunsun və qeyd edilsin ki, əslində onları artırmaq o qədər də asan deyil. Yaxşı olardı ki, bu yaxınlara kimi inkişaf prosesində və humanitar

yardımı planlaşdıranda görünməz qalan qadın tələbatları və maraqları dairəsini daha dolğun anlamaq üçün öz cəhdlərimizdə fərqlər qoyaq.

**Praktiki və strateci qender tələbatları**

***Praktiki qender tələbatları:***

- Onlar təxirəsalınmaz zərurətlə bağlıdırlar.
- Onlar konkret şəraitdə formalaşırlar.
- Onldar qadının qender əmək bölgüsündən irəli gələn vəziyyətdən yaranır (yəni qadının rolundan).
- Onlar qadının asılı vəziyyətini dəyişmir, hərçənd ondan irəli gəlirlər
- Bu tələbatlar, başlıca olaraq, qadınların reproduktiv və məhsuldar rolundan irəli gəlir.

Qadınların praktiki qender tələbatları özündə aşağıdakıları birləşdirə bilər:

- Su təminatı;
- Sağlamlığın qorunması;
- Ailəni dolandırmaq üçün gəlir əldə edilməsi;
- Ev təsərrüfatının aparılması və əsas məişət xidmətləri;
- Ailənin ərzaq və qida təminatı.

Bunlar hələ də xüsusən qadınların praktiki qender tələbatları kimi müəyyən edilməsinə baxmayaraq bütün ailə üzvlərinin tələbatıdır, çünki məhz qadınlar onların təminatı vəzifələrini üzərlərinə götürürlər.

***Strateji qender tələbatları***

Onlar qadınların cəmiyyətdəki asılı vəziyyətinin analizi əsasında formalaşdırılıblar.

- Onlar müəyyən ediliblərsə, əməyin qender bölgüsünün dəyişdirilməsinə aparılmalıdır.
- Onlar kişilərlə qadınlar arasındakı münasibətlərin mahiyyətini dəyişdirirlər.
- Onların məqsədi – qadınların asılı vəziyyətini dəf etməkdir.

Strateci qender tələbatlarına aşağıdakılar daxil ola bilər:

- Əməyin cinsi əlamətlərə görə bölgüsünün ləğvi.
- Ev əməyinin və uşağa qulluğun yükünün yüngülləşdirilməsi.
- Torpaq hüququ və mülkiyyət hüququ kimi hüquqlarda qanuniləşdirilmiş ayrı-seçkilik formalarının ləğvi.
- Kreditlərə və digər resurslara yol tapma.
- Kişilər tərəfindən qadınlar üzərində zorakılığa və nəzarətə qarşı tədbirlər.

Bir neçə söz də kişilərin tələbatları və maraqları haqqında. Kişilərin praktiki qender tələbatlarını təyin etmək heç də çətin deyildir. Biz kişilərin strateci maraqları və tələbatlarına toxunuruqsa, məsələ kompleks xarakter alar. Sosial həyatın bütün sektorlarında hakim mövqelərini və «status kvo»nu qoruyub saxlamaq və qadınları özlərinə tabe etmək kişilərin strateci maraqlarına daxildirmi? Bəlkə onların strateci maraqlarına daha bərabər hüquqlu cəmiyyətin yaradılması daxildir ki, burada qadınlar kişilərə tabe olmasınlar? Bəs qadınlar kişilərin strateci maraqları barədə nə deyə bilərlər? Qadınlardan səlahiyyət almaq kişilər üçün vacibdirmi? Öz uşaqlarına daha yaxın olmaq və həyatda daha balanslaşdırılmış münasibətlər qurmaq üçün kişilərlə uşaqlara qulluq vəzifələrini bölmək lazımdırmı? Kişilər özlərinin necə də güclü, aqressiv,

rəqabətə dözümlü olmaları haqqında sosial gözləmələri dəf etməri lazımdırmı? Yoxsa bu əslində qadınların qender tələbatı və marağıdır ki, «onlar-belədirlər» düşünsünlər? Kişilər, qadınlar kimi, yekcins kateqoriya deyildirlər. Kişilər var ki, digər kişilər üzərində hakimdirlər, kimşilər də vardır ki, qadınları sıxışdırmaq onların strateci maranqlarında deyildir. Buna görə də elə sahələr vardır ki, orada strateci məqsədlərə çatmaq üçün qadınlar kişilərlə alyans yarada bilərlər. Məsələ yalnız ondadır ki, təkcə qadınlar yox, kişilər də dəyişməlidirlər. Bunu inkişafı və humanitar fəaliyyəti planlaşdıranda nəzərə almaq üçün gərək kişilərin qender maraqları müəyyən edilsin və təhlil olunsun.

Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar

1. Kişilərin və qadınların rolları və fəaliyyətlərinə dair sorğu – 30-40 dəq.
2. Qadınlar və kişilər haqqında miflər və onların nəticələri – 1,5-2 saat.
3. 24-saatlıq iş günü – 1,5 saat.
4. Rolların və tələbatların analizi – 90 dəq.
5. Praktiki və strateci qender tələbatları – 1 saat.